günahlandırmayın, hər şey mənim dikbaşlığımdan, lap yekəbaşlığımdan başladı, mən sakitcə öz işimi görməliydim, daha sizə ağıl vermək, yol göstərmək...

Yenə sözünü ədəblə kəsdi, az qala qızın qabağında təzim edə-edə günahkarcasına əllərini ovuşdurdu:

- Xahiş edirəm, kobudluğumu bağışlayın, istedadlı bir dissertant kimi sizə inanıram, siz qətiyyən günahkar deyilsiniz, əksinə, bir mələk kimi paksınız, dupdurusunuz, o sözləriniz də bu paklıqdan, duruluqdan...

- Nə paklıq, nə duruluq? - Qız qəribə bir şövqlə danışır, geri çəkilmək istəmirdi, - mən açıq-aşkar səhv etdim, günaha batdım. lap ulu nənəmiz Həvva kimi, - naəlac çiyinlərini çəkdi, - neyləyəsən, ilk səhv, əzəl günah qadınların qismətinə yazılıb. Həvva Adəmin sözünə qulaq assaydı, o meyvədən gözünü çəksəydi, nəfsinə qalib gələ bilsəydi, hər şey daha başqa cür olardı, insanlar qovulmazdılar, cənnətdə əbədi sakin olub, əbədi xoşbəxtlik içində yaşayardılar. - Susdu, dərindən nəfəs alıb bənövşəyə döndü, yenə çiyinlərini çəkdi. - Həvvanı da çox qınamaq olmur, axı o, Adəmin iki qabırğasından, necə deyərlər, indiki anlamda desək, kloun kimi yaradılmışdı; qəm adasının torpağıyla qəm dəryasının suyunun qarışığından, iylənmiş palçığından yaradılan heykələ Allah nəfəsiylə can verilərək xəlq edilən Adəm hara, onun iki qabırğasından, yəni hüceyrəsindən kloun kimi yetişdirilən Həvva hara! Ona görə qadın əzəli və əbədi səhvlər səbəbkarıdır, qadının alın yazısında...

Qız birnəfəsə, elə ehtirasla danışırdı ki, bayaqdan bəri uyğun bir an tapıb onun sözünü kəsə bilmirdi, nəhayət, alın yazısı sözündə yaranan ani sükutdan istifadə etdi:

- Elə deməyin, qadını bu qədər aşağılamaq olmaz; qadın anadır, həyat verəndir, müqəddəsdir!

- O məntiqlə inkubator sexləri də müqəddəs sayılmalıdır, yumurtalara həyat verir...

- Bu, o qədər də uğurlu anologiya deyil. Mən başqa bir müqəddəs sözü, müqəddəs kəlamı yada salmaq istəyirəm: Cənnət anaların ayaqları altındadır!

Qız ruhi xəstə kimi qəfildən şaqqanaq çəkib güldü:

- Qəribədir, anaların ayaqları altında olan cənnətdən Adəm və bütün insanlıq Həvva anaya görə qovuldu...

- Hər halda sən də, mən də bilirik, inanırıq ki, ana müqəddəsdir!

- Biz bayaq ana haqqında yox, qadın, qadınlıq haqqında danışırdıq, mən bilən bunlar eyni şey deyil.

- Qəribədir, mən kişi ola-ola qadınları, anaları müdafiə edirəm, siz isə...

Qız qızarmışdı, həyəcandan əlləri əsirdi, bir qədər əvvəl zibilqabından götürdüyü cırıq kağız parçalarını əsən əlləriylə stolun üstündə yan-yana qoyur, bütöv vəziyyətini bərpa etməyə çalışırdı. Sonra makinaya təzə ağ vərəq salaraq, stolun arxasına keçib əyləşdi.

- Bu, Tanrı qarğımış mübahisədir. - Bir qədər susub əlavə etdi. - Yalnız o, Allah bilir ki, ilk qadının, Həvvanın taleyinə Adəmin qabırğasın-dan yaradılmaq qisməti və o ilk günah niyə yazıldı. Bu, sirri-Xudadır, - elə gülümsədi ki, elə bil indicə ağlayacaq, - ona görə də özümüzü yormayaq, professor, mən hazıram, hekayənin davamını deyin, söz verirəm ki, bir də heç vaxt sizin mətnlərə müdaxilə etməyəcəyəm.

Susdu, qanı daman dodaqlarını bir-birinə sıxıb əmrə müntəzir dayandı. Gözlərinin dərinliklərindən, görünməz üfüqlərdən üzü bəri bir balaca işıq iməkləməyə başlamışdı. O işığın gələn yollarına yerlərdən təzətər qızılgüllər boylanır, göylərdən təbəssüm dolu nur yağışları yağırdı...

Yazıçı-filosof bilirdi ki, bir qədər əvvəl cırıq-cırıq edilən, sonra zibilqabına atılan və indi təzədən stolun üstündə yan-yana düzülən o hekayənin əvvəli heç vaxt sona çatmayacaq. Ruhunun çöllərində doğulmadan ölən bir körpənin naəlac çığırtıları gömgöy göyərmişdi.

Gözləri yağışa hamilə göylər kimi dolmuşdu, bir himə bənd idi ki,qəfil leysan başlasın...

Qəfil yağışdan, qara sel-sudan, nagahan Nuh tufanından elə qorxdu ki, ruhunun qıfıllı qapısı ağzında gücü sözlərə çatdı, cırıq-cırıq edilən və indi yan-yana düzülən ölü körpəyə, çilik-çilik çığırtıların gömgöy, qaraqançır taleyinə baxa-baxa pıçıldadı:

- Allah sənə rəhmət eləsin, balaca balam...

- Adəm, mən hazıram... - Qəfildən dediyi bu sözlərə elə heyrətləndi ki...

Kişi də heyrət içindəydi, geniş alnında tər damlaları puçurlamışdı; hardansa düşən işıq tər damlalarında sayrışır, gözlərini qamaşdırırdı.

- Mən... Adəm... Siz... -Kişi yuxulu kimi sayıqlayırdı, qamaşan gözlərini ovuşdurub qıza baxdı, dəli bir sevda cazibəsində gülümsədi.

Qız yazı makinasının arxasından qalxıb ona yaxınlaşdı, qollarını qaçılmaz kəmənd kimi boynuna dolayıb, dəli bir ehtirasla dodaqlarından öpdü...

O dəlisov, ehtiraslı öpüşdə cənnət ətrinin bihuşedici gözəlliyi, Adəmlə Həvvanın ilk görüşünün tanrısal möcüzəsi vardı; hələ nə günah edilmişdi, nə cənnətdən qovulmuşdular; hələ işığın dalğa-dalğa qabaran, zəmi-zəmi gülən, zirvə-zirvə ərşi-əlaya ucalan vədələriydi...

Bircə anın min illik yuxusundan hövlnak ayılıb kəməndini açdı. Göz-gözə dayanıb çaşqınlıq, heyrət heykəlinə döndülər...

Qızın gözlərinin dərinliyində pöhrələyən körpə işıq xeyli irəliləmişdi, ətə-qana dolan körpə ceyran balası kimi allı-güllü güney yamaclarında belədən-belə qaçır, düz-dünyaya meydan oxuyurdu. Baharın yemlik südünə, lalə qanına qarışan o güney yamaclarından cənnət sevdalı ilk məhəbbətin səsi gəlirdi. Və o sirri-Xuda səsləri açıq-aşkar eşitdikcə min illərin sönmüş ocaq yeri közərir, qızın sinəsi körüklənir, dünyanı ilk dəfə görürmüş kimi gözləri qabarıb hədəqəsindən çıxır, dodaqlarında qan-qırmızı lalələr pardaqlanırdı.

Ruhunda Nuh tufanına dönən nurlu, yanar təlatümlərlə sirli-sirli gülümsədi. Qanı daman lalə dodaqlarının qıfılını qırıb, yenidən yazı masasının arxasına keçərək şövqlə dilləndi:

- De gəlsin! Bahar küləyi kimi əs, yaz yağışı kimi yağ, Nuh tufanı kimi coş, mən bütöv bir romanı birnəfəsə yazmağa hazıram, Adəm...

Və baş mələk dedi ki, afərin, əhsən sənə! Tapşırığı yerinə yetirdin, sevgi lap yerinə düşdü. Sıravi mələk çiyinlərində bapbalaca bir işıq görüb xeyli sevindi və ölən körpənin boş qalan yoluna yazdığı böyük bir sevgi dastanının sirri-Xuda işığından gözləri qamaşdı; bu, onun ilk işi, ilk iş günüydü...

**Şabran**

*27 noyabr 2016-cı il*